# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/2** **17 yanvar 2017-ci il**

**Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı həyata keçiriləcək tədbirlər barədə**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Milli Fəaliyyət Planının icra vəziyyəti ilə bağlı həyata keçirilmiş tədbirlər barədə məlumatları Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edəcək məsul şəxs Auditorlar Palatasının Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi Maarif Abbasov müəyyən edilsin.

2. Məsul şəxs M.Abbasova tapşırılsın ki, 5 (beş) gün müddətində özü barədə məlumatları məktuba əlavə edilmiş formaya uyğun olaraq elektron formada Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsini təmin etsin.

3. M.Abbasova tapşırılsın ki, 2017-ci il 23 yanvar tarixində saat 10.00-da Hilton Bakı hotelində (1b Azdlıq prospekti) "Elektron Monitorinq Sistemi" nin təqdimatı və istifadə qaydaları ilə bağlı keçiriləcək təlimdə Auditorlar Palatasını təmsil etsin.

4. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**